# İnanırıq ki, builki Formula-1 yarışları da uğurla başa çatacaq

**Azərbaycan bir çox beynəlxalq tədbirlərə ev sahibliyi etmək sahəsində böyük təcrübə qazanıb. Həmişə bu cür tədbirlər yüksək səviyyədə təşkil olunub, istər ölkə ictimaiyyəti, istərsə də ayrı-ayrı ölkələrdən gəlmiş qonaqlar tərəfindən razılıqla qarşılanıb. Bu beynəlxalq tədbirlər sırasında I Avropa Oyunlarını, “Eurovision”, Bakı Beynəlxalq Humanitar Forumu və digər tədbirləri qeyd etmək olar. Bütün bu forumlar Azərbaycanın yüksək təşkilatçılıq qabiliyyətinin olduğunu, müstəqillik əldə etdikdən sonra dünya səviyyəli dövlətə çevrildiyini təsdiq edir.**






Azərbaycanın son illərdə ev sahibliyi etdiyi mühüm beynəlxalq tədbirlərdən biri də Formula-1 yarışlarıdır. Artıq bir neçə ildir ki, bu yarışlar Bakıda yüksək səviyyədə təşkil edilir. Artıq paytaxtımızda daha bir Formula-1 yarışları start götürüb. Şübhəsiz ki, ölkəmizin, onun rəhbərliyinin, yarışlarla bağlı yaradılmış təşkilat komitəsi tədbiri uğurla başa çatdıracaq. Yəqin ki, buna nə ölkə daxilində, nə də xaricdə heç kəsin şübhəsi yoxdur.

Formula-1-in keçirildiyi əvvəlki illərdə də məlumat verilirdi ki, tədbir təkcə təhlükəsizliyin təminatı, infrastruktur cəhətdən hazırlıqlı olmağımız, kütləvi tədbirlərin keçirilməsi ilə bağlı təşkilati və texniki baza yarada bilməyimiz sahəsində geniş təcrübə deyil, şəhərimizin küçələrində yeni və maraqlı texnika nümunələrinin, son illərədək yalnız televiziyalarda müşahidə etdiyimiz supermotorların görünməsi baxımından əhəmiyyətlidir.

Bundan əlavə, tədbirin iqtisadi faydaları haqqında danışmaq da lazımdır. Doğrudur, yarışlara ev sahibliyi edən ölkə müəyyən qədər xərc çəkməli, trassı öz hesabına hazırlamalı olur. Amma bunun müqabilində ev sahibi həm də çox yaxşı qazanc götürür. Yarışın keçirildiyi günlərdə Bakıya dünyanın ən müxtəlif ölkələrindən çoxlu sayda azarkeş, mətbuat nümayəndələri, eləcə də turistlər gəlirlər. Onların neçə gün ərzində Bakıda yaşaması, otellərdə yerləşməsi və sadəcə vətəndaşlarımızın evlərini kirayələməsi, eləcə də gündəlik güzəranlarını keçirmələri, şübhəsiz ki, ölkə üçün iqtisadi faydadır.

Bu yarışların həm də turizmin inkişafı ilə birbaşa bağlı olduğu da danılmaz faktdır. Məndə olan məlumata görə, ötən illərdəki Formula-1 yarışlarından birini izləmək üçün Bakıya 90 mindən artıq tamaşaçı-azarkeş gəlib. Təkcə bu rəqəmin özü iqtisadi faydadan xəbər vermirmi?!

Bir şeyə əminəm ki, Azərbaycan hakimiyyəti, Prezident İlham Əliyevin dediyi kimi, nəyi nə vaxt etmək lazım gəldiyini yaxşı bilir və atdığı addımlarla yalnız ölkənin milli maraqlarına xidmət edir. Bunu ictimaiyyətimiz də yaxşı anlayır. Ona görə də inanırıq ki, builki tədbir də böyük uğurla başa çatacaq və ölkəmizə başucalığı gətirəcək.

***Ələşrəf NİFTİYEV,***
***Azərbaycan Yazıçılar və Jurnalistlər birliklərinin üzvü***

Xalq qəzeti 2021.- 4 iyun.- S.6.